# Görkəmli alim və pedaqoq



Filologiya elmləri doktoru, professor Cəfər Cəfərov öz yaradıcılıq üslubu, dəst-xətti, elmi istiqaməti ilə seçilən alimdir.

Eyni zamanda, səmimiyyəti, qayğısı, ünsiyyəti, elmi-pedaqoji fəaliyyəti ilə seçilən, ürəyində vətən dərdi, yurd həsrəti, el-oba nisgili yaşadan, tarixin ədalətsiz məqamlarına nifrət bəsləyən vətənpərvər bir ziyalıdır.

Professor Cəfər Cəfərov 1931-ci il iyulun 1-də Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan İrəvan şəhərinin yaxınlığındakı Əştərək rayonunun Hamamlı kəndində dünyaya göz açmışdır. Hamamlı kəndi İrəvanın şimal-qərbində 40 km məsafədə yerləşmiş, balaca bir kənd idi. Bu kənddən söhbət düşəndə Cəfər müəllim həmişə fəxrlə qeyd edir ki, mənim doğulduğum Hamamlı kəndi dünyanın ən ləyaqətli guşələrindən biridir. Akademik Budaq Budaqov bu kəndin coğrafi mövqeyi barədə yazır: “Hamamlı kəndi elə bil ki, dağların döş qəfəsinin mərkəzində yaranmışdır. İlahinin yaratdığı bu qeyri-adi təbii gözəllik Hamamlıda yaşayan əhalinin qanına və canına hopmuş, onların aydın zəkasına və təfəkkürünə qarışmışdır. Hamamlıda hər şey insanla təbiətin vəhdətindən xəbər verirdi”. Bu kənd Azərbaycan xalqının ən görkəmli simalarından biri olan ictimai xadim, tibb elmləri doktoru, professor Əziz Məmmədkərim oğlu Əliyevin parlaq şəxsiyyəti sayəsində tarixə düşmüşdür.

Onu da qeyd edim ki, görkəmli alim, ictimai xadim, professor Əziz Əliyev 1897-ci ildə bu kənddə dünyaya göz açmışdır.

Cəfər müəllim 1945-ci ildə Hamamlı kənd 7 illik məktəbini bitirdikdən sonra İrəvan azərbaycanlı Pedaqoji məktəbinə daxil olmuşdur. Pedaqoji Texnikum Cəfər müəllimin həyatında silinməz izlər buraxmışdır. Hər dəfə İrəvan Azərbaycanlı Pedaqoji Texnikumundan söhbət düşəndə Cəfər müəllim bu təhsil ocağının əvəzsiz bir məbəd olduğunu xüsusi qeyd edir, burada dərs deyən onun inkişafında rolu və əməyi olan Həbib Məhəmmədzadəni, Bəhlul Yusifovu, Sadiq Heydərzadəni, Məmməd Həsənovu, Təvəkkül Kərimovu, Əşrəf Bayramovu, Əyyub Babayevi, Surə, Raziyə və başqa müəllimlərini, tələbə yoldaşlarını unutmur, onları ürək yanğısı ilə, məhəbbət və ehtiramla daim xatırlayır. Cəfər müəllimlə həmsöhbət olduqda onun nə qədər elə-obaya, bu gün acı bir nisgilə dönmüş doğma yurda bağlı olduğunun bir daha şahidi olursan.

Cəfər müəllim 1948-ci ildə Pedaqoji Texnikumu uğurla bitirdikdən sonra Hamamlı kənd 7 illik məktəbinə müəllim təyin edilir və iki il həmin məktəbdə müəllim işləyir.

Tarixin ən ədalətsiz hadisələrindən biri olan 1948-53-cü illərdə həyata keçirilən deportasiyalar nəticəsində əksər azərbaycanlı ailələri kimi, Cəfər müəllimin də ailəsi öz doğma, tarixi yurdundan Azərbaycan Respublikasının Salyan rayonuna köçürülmüşdür. Yeri gəlmişkən onu da qeyd edim ki, bununla onların ailəsi, el-obası 3-cü dəfə (1905-1906, 1918-1920, 1948-1953-cü illərdə) mənfur ermənilər tərəfindən soyqırıma və deportasiyaya məruz qalaraq öz isti ocaqlarından, dədə-baba yurdlarından didərgin salınmışlar.

Cəfər müəllim böyük həyat yolu keçmiş, elmdə yüksək nailiyyətlərə nail olmuş, professor səviyyəsinə yüksəlmişdir. O illərlə yaddaşında saxladığı, qürur duyduğu, fəxr etdiyi Əştərək rayonu, eləcə də Hamamlı kəndini əbədiləşdirərək, bu yerlərin onomastik vahidlərini qələmə almış, “Qərbi Azərbaycanın Əştərək rayonunun bəzi onomastik vahidlərinin tarixi-linqvistik təhlili”, “Hamamlı kəndi ilə bağlı etnonim və şəxs adları”, “Hamamlı şivəsinin leksikasına dair terminə oxşar leksika”, “Hamamlı şivəsinə aid lüğət” əsərlərini yazaraq Əştərək rayonu və Hamamlı kəndini əbədiləşdirmişdir. Cəfər müəllim bu əsərləri ilə tarixi yaddaşımızı möhkəmləndirməklə yanaşı həm də milli-mənəvi dəyərlərimizi nümunə kimi işıqlandırır. Onun yazdığı “Qərbi Azərbaycanın Əştərək rayonunun bəzi onomastik vahidlərinin tarixi linqvistik təhlili” əsəri İrəvandan 40 km şimali qərbdə yerləşdiyi və aşağıdakı, məsələn Cadqıran, Qaraçörən, Kirəşdi, Saçlı, Sərinsəvəng, İlançalan əhatə olunduğu və s. belə yüzlərlə kəndin türk mənşəli olması və bunların çoxunun 1950-ci illərdə dəyişdirildiyi həmin əsərdə öz əksini tapmışdır. Onun dədə-baba yurdu Əştərək mahalı, Hamamlı kəndi haqqında yazdığı əsərləri içərisində “Hamamlı faciəsi” əsəri xüsusi yer tutur. Əsərdə Hamamlı kəndi və onun timsalında ermənilərin azərbaycanlılara qarşı törətdikləri qanlı cinayətlər, qətliamlar, soyqırım ifşa edilərək, azərbaycanlıların başına gətirilən müsibətlərdən, bəlalardan bəhs edilir.

Professor Cəfər Cəfərov 150-dən artıq elmi, publisistik məqalənin, “Nitq hissələrində keçid prosesləri” (1983), “Müasir Azərbaycan dilində inkarlığın ifadə vasitələri” (2000), monoqrafiyaların, “Müasir Azərbaycan dilinin morfologiyası” (N.Abdullayevlə birlikdə 2004) dərsliyinin, “Linqvistik təhlil nümunələri” (N.Abdullayevlə birlikdə, 2004) dərs vəsaitinin, Təhsil tariximizdən: İrəvan Pedaqoji Məktəbi (C.Allahverdiyevlə birlikdə, 2017), “İrəvanda milli maarifçilik mühiti” (C.Allahverdiyevlə birlikdə, 2017) kitablarının müəllifidir. Cəfər müəllimin müxtəlif vaxtlarda yazdığı xeyli sayda ədəbi-bədii əsərləri də vardır.

Cəfər Cəfərov respublikada tanınmış dilçi alimlərimizdən biridir. Onun həyatı, elmi fəaliyyəti, yaradıcılığı zəngindir.

Cəfər müəllim 1950-1952-ci illərdə Qazax ikiillik Müəllimlər İnstitutunda oxumuş, oranı fərqlənmə diplomu ilə bitirərək Salyan şəhəri 4 №-li məktəbə dil və ədəbiyyat müəllimi təyin edilmişdir. Bir il işlədikdən sonra 1953-cü ildə ADU-nun filologiya fakültəsinin I kursuna qəbul edilmişdir. Cəfər müəllim ADU-da oxuduğu illərdə Mir Cəlal, Cəfər Xəndan, Həmid Araslı, Əli Sultanlı, Muxtar Hüseynzadə, Məmməd Arif Dadaşzadə, Məmməd Hüseyn Təhmasib, Abbas Zamanov, Qulam Cəfərov və başqa görkəmli şəxsiyyətlərdən dərs almışdır. Cəfər müəllimin xoşbəxtliyi ondadır ki, sonralar Azərbaycan elminə öz töhfələrini vermiş AMEA-nın həqiqi üzvləri Yaşar Qarayev, Tofiq Hacıyev və elmlər doktorları Şamil Salmanov, Arif Səfiyev şair və yazıçılar İbrahim Göyçaylı, Həmid Abbas, Ağacavad Əlizadə, ədəbiyyatşünas alim və jurnalist Firudin Ağayev və başqaları ilə eyni qrupda təhsil almışdır. O, 1958-ci ildə həmin institutu qırmızı diplomla bitirərək, təyinatla Mir Bəşir rayonunun Qaradağlı kənd orta məktəbinə dil və ədəbiyyat müəllimi göndərilmiş və iki il orada müəllim işləmişdir.

C.Cəfərov 1960-1963-cü illərdə APİ-nin dilçilik kafedrasının aspirantı olmuşdur. Burda görkəmli türkoloq alim Əbdüləzəl Dəmirçizadənin aspirantı olmuşdur. O, 1964-cü ilin sentyabrında Azərbaycan dilçiliyi kafedrasına müəllim keçirilmişdir. 1965-ci ildə namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almış, 1969-cu ildə isə Azərbaycan dilçiliyi kafedrasının dosenti vəzifəsinə təyin edilmişdir. 1973-cü ilin sentyabrında doktorluq dissertasiyasını tamamlamaq üçün 2 illik doktoranturaya göndərilmişdir. 3 il ərzində “Nitq hissələrində keçid prosesləri” adlı doktorluq dissertasiyasını tamamlamışdır.

C.Cəfərov 1992-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsi almış və 1993-cü ildə Müasir Azərbaycan dili kafedrasına professor vəzifəsinə seçilmişdir. Hazırda həmin kafedrada professor vəzifəsində çalışır.

Cəfər müəllim dilçilik üzrə təşkil olunmuş müxtəlif konfrans və seminarlarda dəfələrlə iştirak edərək maraqlı məruzələrlə çıxış etmişdir. Onun pedaqoji kadrların dilçilik elmi üzrə mütəxəssislər yetişdirilməsində əməyini xüsusi qeyd etmək lazımdır. Prof. C.Cəfərov BDU-nun nəzdində filologiya və jurnalistika elmləri doktoru və fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən Müdafiə Şurasının (D.02.81) üzvüdür. Cəfər müəllim bir neçə elmlər namizədinin elmi rəhbəri olmuş, otuzdan artıq magistr dissertasiyalarının rəhbəri olmuşdur. O, ömrünün 50 ildən artıq bir hissəsini milli maarifimizin inkişafına, azərbaycanlı balalarının elmə, təhsilə yiyələnməsinə sərf etmişdir. Onun dərs dediyi şagirdlər, tələbələr arasında onlarla alim, müxtəlif peşə sahibləri bu gün cəmiyyətimizə ləyaqətlə xidmət edirlər. Cəfər müəllim fədakar əməyinə görə 2012-ci ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən “Əməkdar müəllim”, Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən “Qabaqcıl təhsil işçisi” döş nişanı (2006) və fəxri adına layiq görülmüş, eləcə də Təhsil Nazirliyinin (1973) dəfələrlə ADPU-nun rəhbərliyinin fəxri fərmanlarına layiq görülmüşdür.

C.Cəfərov Müasir Azərbaycan dili fənninin müxtəlif şöbələrinə: leksikologiyaya, morfologiyaya aid bir sıra əsərlərin müəllifidir. C.Cəfərovun Müasir Azərbaycan dili fənnindən başqa onun dialektologiyaya aid maraqlı əsəri çap olunmuşdur.

C.Cəfərovun onomastikaya, nitq mədəniyyətinə aid də bir sıra maraqlı məqalələri çap edilmişdir. Məsələn, “Substantivləşmə yolu ilə onomastik vahidlərin əmələ gəlməsi, “Substantivləşmə yolu ilə terminoloji vahidlərin əmələ gəlməsi” (1988), “Dilimizdə inkar vasitələrdən istifadə məsələsinə dair” (1986) və s. əsərləri çap edilmişdir. O əsərlərində ana dilimizin müqəddəsliyini, lətafətliliyini, şirinliyini, ləyaqətini əsl vətəndaş qeyrəti ilə qoruyur, tədqiq və tədbiq edərək, gələcək nəsillərə ana dilimizin əzəmətini, gözəlliyini qoruyub saxlamağı onun keşiyində durub, qayğısını çəkməyi tövsiyə edir. Cəfər müəllim dilçiliyimizin bir sıra sahələrinə aid xeyli sayda öz sanbalı və dəyəri ilə seçilən əsərlərin müəllifidir. Həmin əsərləri diqqətlə nəzərdən keçirdikdə onun dilinin əlvanlığı, zənginliyi ilk baxışdan diqqəti cəlb edir. Cəfər müəllimi peşəkar dilçi-alim kimi səciyyələndirən xüsusiyyətlərdən biri də onun yaradıcılığında özünə yer alan hər bir mövzuya yeni baxış bucağından yanaşmasıdır. Cəfər müəllim elmi və pedaqoji fəaliyyətini bu gün də uğurla davam etdirir. Onun keçdiyi ömür yolu nə qədər enişli-yoxuşlu olsa da həmişə uğurlu olmuşdur. Ulu Tanrı ona xüsusi istedad və geniş ürək vermişdir. İrəvan Pedaqoji Məktəbindən başlayan fərəhli, acılı-şirinli tələbəlik illəri, bir-birini əvəz edən gərgin zəhmət, səmərəli əmək fəaliyyəti onu bugünkü zirvəyə çatdırmışdır.

Professor Cəfər Cəfərov bu gün də elmi-pedaqoji fəaliyyətini davam etdirir.

**Cəlal ALLAHVERDİYEV,**
**filologiya üzrə fəlsəfə doktoru, dosent.**